İPƏK YOLU, No.3, 2025, səh.118-129
https://doi.org/10.30546/SI.2025.3.112.324

# GƏMİ TƏMİRİ SAHƏSİNDƏ İXTİSASLAŞMANIN FORMALARI VƏ ONLARIN SƏVİYYƏLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ ÜSULLARI

**Mirvari Məmmədova[1], Qalib Hacıyev[2]**

[1]Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), Bakı, Azərbaycan
[2]Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
e-mail: mirvari.mammadova@socar.az, galib.haciyev@gmail.com

**Xülasə.** Məqalədə gəmi təmiri müəssisələrinin modernləşdirilməsinin əsas perspektiv ixtisaslaşma istiqamətləri müəyyən edilmişdir. Beynəlxalq gəmiqayırma sənayesində və gəmi təmiri sahəsində rəqabət münasibətlərinin artdığı şəraitdə ölkəmizdə ixtisaslaşmanın formalarının hazırda strateji səmərəliliyini təmin etməyə və strateji əhəmiyyətli sənaye sahələrindən biri kimi inkişaf məqsədlərinə çatmaq üçün bir sıra məsələlər öz həllini tapmalıdır. Həmin məsələlərin həlli istiqamətində tövsiyyələr məqalədə əks olunmuşdur.

**Açar sözlər:** Gəmi təmiri müəssisələri, rəqabət münasibətləri, gəmiqayırma sənayesi.

## FORMS OF SPECIALIZATION IN THE FIELD OF SHIP REPAIR AND METHODS OF DETERMINING THEIR LEVELS

**Mirvari Mammadova, Galib Hajiyev**
*State Oil Company of the Republic of Azerbaijan SOCAR, Baku, Azerbaijan*
*Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan*

**Abstract.** The main prospective specialization directions of modernization of ship repair enterprises are defined in the article. In the conditions of increasing competition in the international shipbuilding industry and in the field of ship repair, a number of issues must be resolved in order to ensure the strategic efficiency of the forms of specialization in our country and to achieve the goals of development as one of the strategically important industries. Directions for solving those issues are reflected in the article as a recommendation.

**Keywords:** Ship repair enterprises, competitive relations, shipbuilding industry.

## ФОРМЫ СПЕЦИАЛИЗАЦИИ В ОБЛАСТИ СУДОРЕМОНТА И МЕТОДЫ ОПРЕДЕЛЕНИЯ ИХ УРОВНЯ

**Мирвари Маммедова, Галиб Гаджиев**
*Государственная Нефтяная Компания Азербайджана (SOCAR), Баку, Азербайджан*
*Азербайджанский Государственный Экономический Университет (UNEC), Баку, Азербайджан*

**Резюме.** В статье определены основные перспективные направления специализации модернизации судоремонтных предприятий. В условиях обострения конкуренции в международном судостроении и в сфере судоремонта необходимо решение ряда вопросов для обеспечения стратегической эффективности форм специализации в нашей стране и достижения целей развития как единого целого. Стратегически важных отраслей. Направления решения данных вопросов отражены в статье в качестве рекомендации.

**Ключевые слова:** Судоремонтные предприятия, конкурентные отношения, судостроительная промышленность.

## 1. Giriş

Müasir dövrdə müəssisələr daim dəyişən və qeyri-müəyyənliklərlə xarakterizə olunan iqtisadi mühitdə fəaliyyət göstərir, rəqabət qabiliyyətinin gücləndirilməsi, bazarda yerin möhkəmləndirilməsi, yeni bazarlara çıxışın, istehlakçıların tələbatının təmin edilməsi, məhsul keyfiyyətinin müasir tələblərə müvafiq artırılması, malgöndərənlərlə münasibətlərin tənzimlənməsi məqsədilə zəruri tədbirlər həyata keçirilir [8, s.49]. Belə bir iqtisadi şəraitdə

gəmiqayırma ölkəmizin sənayesinin mürəkkəb və spesifik sahələrindən biri hesab olunur. Gəmiqayırma sənayesi mövcud qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının ərazisində qeydiyyata alınmış gəmiqayırma və gəmi təmiri müəssisələrini, dəniz cihazqayırma və elektrik quraşdırma müəssisələrini əhatə edir. Bu sferada təşkilati-hüquqi və mülkiyyət formalarından asılı olmayaraq, gəmilərin və üzən konstruksiyaların yaradılmasını (tədqiqat, layihələndirmə, tikinti, texniki təminat, modernizasiya, təmir və utilizasiya) reallaşdıran subyektlər fəaliyyət göstərirlər.

İctimai və ya şəxsi tələbatı təmin etmək məqsədilə məhdud nomenklaturada istehsalın nisbətən uzun müddətə hazırlanmasını təmin etmək üçün gəmi təmiri sahəsinin uyğunlaşdırılması sahə üzrə ixtisaslaşma hesab olunur. Özünün konstruksiyasına və hazırlanma texnologiyasına əsasən analoq təşkil edən, tətbiq sahəsi məhdud olan, istehsalı uzun müddətə təkrar olunan istehsalın bir gəmi təmiri müəssisəsində təmərküzləşməsi müəssisə miqyasında ixtisaslaşma sayılır. Təmərküzləşmə nəticəsində hər bir gəmi təmiri müəssisəsinin inkişafına nail olmaq üçün strategiya, strateji məqsədlər və göstərilən strateji xidmətlər həyata keçirilməlidir.

R. Kaplan və D. Norton strategiya, strateji məqsədlər və göstərilən strateji xidmətlərin dörd perspektiv əsasında qurulmasını təklif etmişlər: ixtisaslaşdırılmış, stimullaşdırılmış və vahid komandada toplanmış işçi heyət inkişaf etmiş infrastrukturdan (informasiya sistemləri, avadanlıq, texnologiya) istifadə edir, biznes proseslər (müştəri sifarişlərinin vaxtında yerinə yetirilməsi, keyfiyyətli servis təminatı) müştərilərin məmnunluğu, müəssisənin marketinq üstünlükləri öz növbəsində maliyyə nailiyyətlərinin təminatı olur [7, s.29-30; 14]. Belə ki, gəmi təmiri müəssisələrinin bu cür ixtisaslaşması şəraitində istehsal prosesinin səmərəli və yüksək məhsuldarlıqlı texnika ilə təminatı, istehsalın təşkilinin mütərəqqi üsullarından istifadə olunması imkanları yaranır, o cümlədən kadrların peşə tərkibindən daha səmərəli istifadəsi təmin olunur. Belə bir şəraitdə istehsalın ictimai təşkili prosesində mühüm əhəmiyyət kəsb edən və xüsusi aktuallığa malik olan gəmi təmiri müəssisələrində ixtisaslaşmanın araşdırılmasına böyük ehtiyac vardır.

## 2. Gəmi təmiri sahəsində ixtisaslaşmanın formaları

Müasir şəraitdə gəmi təmir edən sahibkarlıq subyektlərində ixtisaslaşdırma texnoloji proseslərin yerinə yetirilməsi məqsədilə onların sex, istehsal sahəsi və iş yerləri arasında bölüşdürülərək təmərküzləşməsini nəzərdə tutur. Azərbayaycanın gəmi təmiri sahəsində istehsalın ixtisaslaşması yalnız ölkə daxilində baş verir. Hazırda ölkəmizdə gəmiqayırma və gəmi təmiri sahələri dayanıqlı inkişaf etməkdədir. Bu cür inkişaf vəziyyətini ölkəmizin Prezidenti cənab İlham Əliyev Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında çıxışı zamanı qeyd etmişdir ki, *“...Azərbaycanın gəmiqayırma imkanları bu gün, həmçinin bizim Xəzərdəki qonşularımıza da təqdim olunub”. “Bakı gəmiqayırma zavodunda bizim Xəzər üzrə qonşularımızın sifarişlərinin qəbul edilməsi üzrə danışıqlar və fəal iş aparılır”*, - deyə ölkə Prezidenti vurğulamışdır [4].

Bütün gəmi təmir edən sahibkarlıq subyektləri əsasən üç ixtisaslaşma forması ilə xarakterizə olunur: obyekt əsasında, texnoloji və ətraflı [12; 16; 17; 19; 22] (Şəkil 1). Obyekt əsasında ixtisaslaşmanın mahiyyəti ondan ibarətdir ki, uzun müddət sahibkarlıq subyektinə eyni tipli gəmilər və ya məhdud sayda gəmilər təyin edilərkən onların təmir vaxtının azaldılmasına nail olunur. Gəmi təmirinin obyekt əsasında ixtisaslaşma səviyyəsini ən dəqiq qiymətləndirilməsi üçün əsas eyni tipli gəmilərin təmirinin əmək tutumunun (smeta hissəsində) illik ümumi gəmi təmiri proqramının əmək tutumuna (smeta hissəsində) nisbəti ilə hesablanması mümkün olan (1) istifadə olunur [16, s.196-199; 17, s.113-114]:




**Şəkil 1.** Gəmi təmiri sahəsində təxmini ixtisaslaşma sxemi [17, s.115]

$$O_i = ƏT_{gt} / ƏT_{üt} * 100 \qquad (1)$$

Burada, $O_i$ - obyekt əsasında ixtisaslaşma səviyyəsi, %;

$ƏT_{gt}$ - əsas eyni tipli gəmilərin təmirinin əmək tutumu, smeta hissəsi;

$ƏT_{üt}$ - illik ümumi gəmi təmiri proqramının əmək tutumu, smeta hissəsi.

Sahibkarlıq subyektinin gəmi təmiri nomenklaturasında eyni tipli gəmilərin sayının artması ilə əmsalın qiymətinin və gəmi təmirinin obyekt əsasında ixtisaslaşma səviyyəsinin yüksəlməsi müşahidə olunur. İxtisaslaşdırılmış gəmi təmiri məmulatlarının texnoloji bərabər ölçülülük dərəcəsini tam xarakterizə etmək üçün 2 saylı düsturun köməkliyi ilə ixtisaslaşmanın bərabər ölçülülük göstəricisindən istifadə olunur [16, s.199].

$$Ə_{bö} = O_i / 100\, n \qquad (2)$$

Burada, $Ə_{bö}$ - obyektin ixtisaslaşmasının bərabər ölçülülük əmsalıdır;

$O_i$ - obyekt əsasında ixtisaslaşma səviyyəsi, %;

n - hesabata görə sahibkarlıq subyektində təmir olunan gəmi növlərinin sayı, ədəd.

Gəmi təmirini həyata keçirən sahibkarlıq subyektlərinin daimi iş yükü olduqda obyekt əsasında ixtisaslaşmasının dərinləşdirilməsi müəssisələrin iqtisadiyyatının yaxşılaşdırılmasını təmin edir, əmək məhsuldarlığının artmasına kömək edir, məhsulların maya dəyərini aşağı salır, təmirin keyfiyyətini və etibarlılığını artırır, yerli hərbi və mülki donanmaların fəaliyyətinə müsbət təsir göstərir. Bu zaman təmir və texnoloji sənədlərin həcminin azaldılması; aqreqat təmirinin daha geniş tətbiqi və əsas təmirin emalatxanalara verilməsi üçün əlverişli şəraitin yaradılması; ixtisaslaşmış müəssisələrin yerinə yetirdiyi işlər nəticəsində kooperasiyanın üstünlüklərindən istifadə imkanlarının stimullaşdırılması vəziyyəti formalaşır [16, s.200].

## 3. Gəmi təmiri müəssisələri tərəfindən gəmilərin təmirinə ehtiyacın hesablanması və modernləşmənin zəruriliyi

Gəmi təmirini həyata keçirən sahibkarlıq subyektlərində texnoloji (mərhələli) ixtisaslaşma ilə onların texnologiyası ilə bağlı əməliyyatlar ayrı-ayrı istehsal sahələrinə ayrılırlar - tökmə, dok, korpus (gövdə), elektrik quraşdırma (qaynaq), ağac emalı və s. [17, s.114]. Texnoloji (mərhələli) ixtisaslaşma dərəcəsinin göstəricisi müəyyən bir müddət ərzində müvafiq texnoloji ixtisaslaşma növünə uyğun olaraq əmtəəlik məhsulların həcminin eyni dövr üçün sahibkarlıq subyektinin əmtəəlik məhsullarının ümumi həcminə nisbəti ola bilər [15, s.40]:

$$Ə_{tex} = Ə_{m\text{-}tex} / Ə_m \qquad (3)$$

Burada, $Ə_{tex}$ - texnoloji (mərhələli) ixtisaslaşma əmsalıdır;

$Ə_{m\text{-}tex}$ - sahibkarlıq subyektində qəbul edilmiş texnoloji (mərhələli) ixtisaslaşmaya uyğun gələn müəyyən müddət ərzində əmtəəlik məhsulların həcmi;

$Ə_m$ - eyni müddət ərzində bütün əmtəəlik məhsulların həcmidir.

Ətraflı ixtisaslaşma zamanı ayrı-ayrı elementlərin (quraşdırmaların, aqreqatların, hissələrin) istehsalı üçün sahibkarlıq subyektləri (sexlər) ayrılır, daha sonra mövzu üzrə ixtisaslaşmış təsərrüfat subyektlərinə daxil olurlar [17, s.114]. Gəmi təmiri müəssisələrində ətraflı ixtisaslaşma nümunəsi dişli çarxların, podşipniklərin və s. istehsalı sahələridir. Ətraflı ixtisaslaşma dərəcəsinin göstəricisi müəyyən bir müddət üçün müvafiq ətraflı ixtisaslaşma növünə uyğun istehsal olunan əmtəəlik məhsullarının həcminin sahibkarlıq subyektinin eyni dövr üçün əmtəəlik məhsullarının ümumi həcminə nisbəti ola bilər [15, s.39-40]:

$$Ə_{ətraflı} = Ə_{m\text{-}ətraflı} / Ə_m \qquad (4)$$

Burada, $Ə_{ətraflı}$ - ətraflı ixtisaslaşma əmsalıdır;

$Ə_{m\text{-}ətraflı}$ - sahibkarlıq subyektində qəbul edilmiş ətraflı ixtisaslaşmaya uyğun gələn müəyyən müddət ərzində əmtəəlik məhsulların həcmi;

$Ə_m$ - eyni müddət ərzində bütün əmtəəlik məhsulların həcmidir.

SSRİ-nin süqutundan sonra ölkəmizin müstəqilliyinin ilk illərində milli donanmanın həcminin əhəmiyyətli dərəcədə azalmasına görə gəmilərin təmirinə ehtiyacın azalması ilə bir çox yerli gəmi təmiri müəssisələrində ixtisaslaşma səviyyəsi xeyli azalmışdır. Belə bir iqtisadi

şəraitdə planlaşdırma və profilaktik təmir sistemi gəmi sahiblərinin ehtiyaclarına uyğun təmir işləri ilə əvəz edildi.

Azərbaycan iqtisadiyyatı bazar münasibətlərinə keçməmişdən əvvəl inzibati-amirlik iqtisadi sistemi dövründə gəmilər sənaye və ya şöbə mənsubiyyətindən asılı olaraq gəmi təmiri zavodlarında təmir olunurdu. Həmin dövrdə gəmi təmirinin inkişafı ilə bağlı araşdırmalar dar çərçivəli yanaşmaya əsaslanırdı. İnzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadi sisteminə keçiddən sonra ölkəmizin təsərrüfat subyektlərinin şöbə və ya sənaye mənsubiyyətindən asılı olmayaraq gəmi təmiri müəssisələrində gəmilərin təmirinə başlanılmışdır. Bu baxımdan, mövcud şöbə yanaşmasından fərqli olaraq, tədqiqat gəmi təmirinin gəmilərin istismar hazırlığını təmin etmək məqsədilə vahid bir proses kimi nəzərdən keçirilməsinə əsaslanan sistemli bir yanaşma formalaşdırır. Bu yanaşma, son bir neçə il ərzində ölkəmizin milli iqtisadiyyatının transformasiya olunaraq modernləşdirilməsi çərçivəsində texniki baxımdan yenidən təchizata əsaslanan gəmi təmiri müəssisələrinin təşkil olunmasına imkan yaradır. Belə ki, istehsal gücünün optimallaşdırılması tələblərinə cavab verən əlaqəli iqtisadi fəaliyyət növlərinin birləşməsindən sinerji effekti əldə etmək üçün sahibkarlıq qurumlarının ixtisaslaşması onların əməkdaşlığının üstünlüklərini və gəmi təmiri istehsalının təmərküzləşdirilməsini əsaslandırmağa imkan verir.

Məlum olduğu kimi, “modernləşmə” termini nəyisə mövcud vəziyyətə uyğunlaşdırmaq deməkdir ki, bu da ən qabaqcıl və səmərəli kimi şərh olunur [9]. Müasir iqtisadi şəraitdə həqiqi modernləşmə üçün köklü institusional dəyişikliklər tələb olunur. Sənayenin modernləşdirilməsinin strateji xətti və ölkə əhalisinin çox hissəsinin burada iştiraka cəlb edilməsinə yönəldilməsi uzun müddət davam etməlidir. Mövcud bazar ehtiyaclarına uyğun olaraq gəmiqayırma sənayesinin inkişaf perspektivləri ölkəmizin mövcud qanunvericiliyinə əsasən qiymətləndirilir.

Gəmiqayırma müəssisələrinin əsas istehsal vəsaitlərinin yüksək dərəcədə köhnəlməsi (mənəvi və fiziki) və daxili bazarın tələblərinə uyğunsuzluğu ilə əlaqəsi sənaye böhranının mövcudluğunu əhatə edir. Bu cür halların aradan qaldırılması üçün ölkənin gəmiqayırma zavodlarının əksəriyyətinin dərin modernləşdirilməsini həyata keçirmək lazımdır. Müəssisələrin müəyyən bir sifariş portfelinə və müştərilər qarşısında yerinə yetirilməli olan öhdəliklərə malik olması ilə vəzifə çətinləşir. Yeni gəmiqayırma zavodunun tikintisi zamanı işçi heyətini işdən çıxarmaq da mümkün deyil, çünki mütəxəssisləri itirmək olmaz. Beləliklə, modernləşdirmə çox vaxt mövcud istehsal proqramını saxlamaq şərti ilə həyata keçirilməlidir [2, s.2077-2078].

## 4. Gəmi təmiri müəssisələrinin modernləşdirilməsinin əsas perspektiv ixtisaslaşma istiqamətləri

Gəmi təmiri sahəsində fəaliyyət göstərən müəssisələrin modernləşdirilməsi təkcə əsas istehsal vəsaitlərinin yenilənməsini deyil, həm də ciddi investisiya tələb edən sahibkarlıq

subyektinin bütün istehsal və təşkilati proseslərində informasiya texnologiyalarının geniş tətbiqini nəzərdə tutur. Gəmi təmiri müəssisələrinin modernləşdirilməsi, sənaye müəssisələrinin istehsal potensialının gücləndirilməsi və inkişaf etdirilməsi məhsulların rəqabətə davamlılığını, habelə dövlət və özəl sahədə fəaliyyət göstərən sahibkarların oxşar layihələrin maliyyələşdirilməsində marağını artıracaq.

Bu baxımdan, ölkəmizin milli iqtisadiyyatının davamlı şəkildə modernləşdirilməsi üçün gəmi təmiri müəssisələrinin ixtisaslaşmasına ehtiyac artır. Gəmi təmiri müəssisələrinin inkişaf etməsinin əsas perspektiv ixtisaslaşma istiqamətləri aşağıdakılar üzrə həyata keçirilir:

- Müəyyən növ gəmilərin təmiri üzrə;
- Donanma təmirinin növləri və kateqoriyaları üzrə;
- Gəminin donanmaya (dəniz, balıqçılıq, nəqliyyat, tədqiqat və s.) mənsubiyyətindən asılı olaraq ixtisaslaşması.

Yuxarıda göstərdiyimiz ixtisaslaşmanın son istiqaməti yeni olmasına görə fərqlənir. Bu ixtisaslaşmaya zərurətin yaranması məhdud sayda təmir sifarişləri şəraitində gəmi növlərinin sayının azalması və ölkəmizin bir çox gəmi sahiblərinin xaricdə təmirə üstünlük verməsi ilə əlaqədardır. Gəmi təmiri müəssisələri bazarda fəaliyyətini davam etdirərək “sağ qalmaq” üçün gəmilərin növündən, idarə və ya digər mənsubiyyətindən asılı olmayaraq istənilən sifarişlər uğrunda mübarizə aparmaq məcburiyyətində qalırlar.

Bu cür vəziyyətin aradan qaldırılması üçün ölkəmizin gəmiqayırma sənayesinin ayrılmaz hissəsi olan gəmi təmiri müəssisələri inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinə əsasən təşkil olunaraq təkmilləşdirilməlidir. Apardığımız araşdırmalardan məlum olur ki, donanmanın gəmi təmirinə ehtiyacı aşağıda göstərdiklərimizlə müəyyən edilir [1; 3; 5; 10; 16]:

– Müxtəlif növ və təyinatlı gəmilərin kəmiyyət tərkibi, onların texniki təchizatının xarakteri;
– Gəmilərin orta yaşı;
– Donanmanın istismar xüsusiyyətləri;
– Texniki vasitələrin daimi mürəkkəbləşməsi və bir çox başqa amillər.

## 5. İllik planlaşdırma prosesində və qısa müddətli perspektivdə gəmilərin təmirinə ehtiyacın müəyyənləşdirilməsi

Ölkədə gəmiqayırma sənayesinin elmi və texnoloji modernləşdirilməsi proseslərinin innovativ planlaşdırılması üçün tətbiq olunan vasitələr təkmilləşdirilməlidir. Gəmiqayırma sənayesində elmi-tədqiqat işlərinin səmərəli idarə edilməsi sistemi, o cümlədən ixtisaslaşmış müəssisələr üçün inteqrasiya olunmuş subpodrat sistemi yaradılmalıdır. Ölkənin gəmiqayırma sənayesində istehsal aktivlərinin optimallaşdırılması və əməyin idarə edilməsi üçün stoxastik modellər hazırlanmalıdır. Ölkədə gəmiqayırma sənayesinin elmi və texnoloji modernləşdirilməsində həlledici rolu eksperimental bazanın yenilənməsi alətləri, istehsalın rəqəmsallaşdırılması alətləri, insan resurslarının inkişafı üçün alətlər, eyni zamanda intellektual fəaliyyətin idarə edilməsi alətləri oynayır [22, s.258].

Ölkəmizdə illik planlaşdırma prosesində və qısa müddətli perspektivdə gəmilərin təmirinə ehtiyacın müəyyənləşdirilməsi məqsədilə xüsusi mərkəzlər formalaşdırılmalıdır. Belə ki, E.B. Sokolova və Y.Q. Juravel də qeyd edirlər ki, *"...“Gəmiqayırma və gəmi təmiri Mərkəzinin” inzibati idarəsi yalnız istehsal xərclərini minimuma endirməyə yönəlməyərək müştərilərə rahat və keyfiyyətli xidmətlər göstərməlidir: gəmilərin dayanma müddətini azaltmaq, işin keyfiyyətini izləmək, ödənişlər və hesablaşmalar üçün çevik maliyyə şəraiti yaratmaq, zəmanət və zəmanət sonrası xidmət göstərmək. Mərkəz üçün sistemli marketinq strategiyasının düzgün qurulması, onu təkcə ölkədə deyil, xaricdə də böyük müqavilələrin baş icraçısı kimi yerləşdirilməsi maraqlı tərəflərin marağını artıracaq və istehsal planlarına uyğun olaraq mütəxəssislərin hazırlanmasını, yenidən hazırlanmasını təmin edən ardıcıl kadr siyasətini həyata keçirəcəkdir. Sistemli marketinq strategiyasının düzgün qurulması gəmi təmiri müəssisəsinə sabit artım verəcək və məhsulların istehsal xəttini genişləndirəcəkdir"* [23, s.27].

Gəmiqayırma sənayesində klasterlər strateji planlaşdırma və resurslardan səmərəli istifadə proseslərini daha səriştəli qurmağa imkan verir, ərazilərin inkişafını sürətləndirməyə kömək edir və yeni bazar imkanlarından səmərəli istifadəni təmin edir. Ümumiyyətlə, gəmiqayırma sənayesində klaster dedikdə, gəmiqayırma müəssisələrinin, ixtisaslaşmış istehsal, xidmət, informasiya xidmətləri təchizatçılarının, elmi-tədqiqat və təhsil təşkilatlarının gəmiqayırma istehsalı və gəmiçilik sahəsində funksional qarşılıqlı asılılığı olan vahid kompleksdə birləşməsi başa düşülür. Eyni zamanda bura dövlət orqanları ilə qarşılıqlı əlaqədə satış, dünya bazarında yerli gəmilərin yüksək səmərəliliyinin və rəqabət qabiliyyətinin təmin edilməsi də daxildir [24, s.62-63].

Bazar islahatları başlamazdan əvvəl, planlaşdırma müvafiq nazirliklər tərəfindən müəyyənləşdirilmiş standartlara uyğun planlı şəkildə gəmilərin profilaktik təmiri və quraşdırılması sisteminə əsaslandıqda, perspektivli və illik planlar tərtib edilərkən, o cümlədən gəmilərin təmiri üçün illik cədvəllər hazırlanarkən bunlar müəyyən edilmişdir: gəmilərin təmirə buraxılması və işlərin başa çatdırılması vaxtı; hər bir gəmi üçün təmirin ümumi məbləği; təxmini saatlarda planlaşdırılan gündəlik iş. Fərdi gəmilərin il və təmir növlərinə görə təmirə ehtiyacı (E) 5 saylı düsturun köməkliyi ilə hesablanmışdır [13, s.248]:

$$E = N^{x} O \qquad (5)$$

Burada, N - təmir ilinin əvvəlinə gəmilərin sayı, ədəd;
O - müəyyən bir təmir növünün orta illik həcmi, min smeta saatı.

Hazırki iqtisadi şəraitdə gəmi təmirinə "kortəbii" yaranan ehtiyac sahibkarlıq subyektlərində təmirin keyfiyyətcə uzunmüddətli və illik planlaşdırılmasına imkan yaratmır. Artıq uzun illərdir ki, bu (zərurət), əsasən, gəmi sahiblərinin üstünlükləri, gəmilərin və onların təmiri sahəsində isə güc strukturu nazirliklərinin və idarələrinin dövlət müdafiə sifarişi çərçivəsində maliyyələşdirmə həcmi ilə müəyyən edilir. Buna görə də, hazırki iqtisadi şəraitdə illik planlaşdırma prosesində gəmilərin təmirinə ehtiyacın (E) hesablanması aşağıdakı düsturun köməkliyi ilə mümkündur:

$$E = N_f \times O_f + N_m \times O_m \quad (6)$$

Burada, $N_f$ - təmir ilinin əvvəlinə müəssisədə faktiki təmir olunan gəmilərin sayı, ədəd;
$O_f$ - təmir ilinin əvvəlinə müəssisədə faktiki təmir olunan gəmilərin müəyyən növ təmirinin orta illik həcmi, min smeta saatı;
$N_m$ - təmir ilindən əvvəlki dövrdə təmiri üçün müqavilələr bağlanmış gəmilərin sayı, ədəd;
$O_m$ - təmir ilindən əvvəlki dövrdə müqavilələri bağlanmış gəmilərin müəyyən bir növ təmirinin orta illik həcmi, min smeta saatı.

Gəmi təmiri müəssisələri gəmi sahibləri ilə əvvəlcədən bir neçə il müddətinə gəmi təmiri işlərinin aparılması üçün müqavilələr bağlasalar, qarşıdakı illərin perspektiv planlaşdırılmasını həyata keçirmək mümkündür. Gəmi təmiri müəssisələri tərəfindən gəmilərin qısa müddətli perspektivdə təmiri üçün planlaşdırma ($E_{qp}$) aşağıdakı düsturun köməkliyi ilə hesablamaq mümkündür:

$$E_{qp} = N_{qf} \times O_{qf} + N_{qm} \times O_{qm} \quad (7)$$

Burada, $E_{qp}$ - qısa müddətli perspektivdə gəmi təmirinə ehtiyac;
$N_{qf}$ - qısamüddətli təmir ilinin əvvəlinə müəssisədə faktiki təmir olunan gəmilərin sayı, ədəd;
$O_{qf}$ - qısamüddətli təmir ilinin əvvəlinə müəssisədə faktiki təmir olunan gəmilərin müəyyən növ təmirinin orta illik həcmi, min smeta saatı;
$N_{qm}$ - qısamüddətli təmir ilindən əvvəl ki ildə təmiri üçün müqavilələr bağlanmış gəmilərin sayı, ədəd;
$O_{qm}$ - qısamüddətli təmir ilindən əvvəlki ildə müqavilələri bağlanmış gəmilərin müəyyən bir növ təmirinin orta illik həcmi, min smeta saatı.

Beləliklə, məlum olduğu kimi keçən əsrin sonunda keçmiş İttifaqın iqtisadi sistemində baş vermiş dəyişikliklər zamanı gəminin planlı təmirinin təşkili üçün əsaslandırılmış vahid tədbirlər kompleksi olan planlı profilaktik təmir sistemi dağıldı. Hazırda planlı iqtisadi sistemdən bazar iqtisadi sisteminə keçmiş müstəqil ölkəmizin gəmi təmiri bazarında tədqiqat (syurvey) təmir sistemi (yaxud tələb üzrə təmir) dominant mövqeyə malikdir. Bu sistem gəmilərin təmirinə olan ehtiyacların hesablanmasına düzəlişlər edir və gəmi təmiri müəssisələrinin yeni ixtisaslaşma növlərinin yaranmasını stimullaşdırır.

Qeyd etmək lazımdır ki, təmir və donanmanın arasındakı qarşılıqlı əlaqə gəmi təmiri iqtisadiyyatının ən mühüm xüsusiyyətlərindən biridir. Özünəməxsus spesifik və iqtisadi göstəriciləri olan təmir və donanmanın nəqliyyat və balıqçılıq əməliyyatları ilə sıx əlaqəsi mövcuddur. Həmin əməliyyatlar həyata keçirilərkən dünya okeanında mənfəətin və ya milli maraqların təmin edilməsi əsas şərtdir [3; 11; 14; 20; 21]. Bu cür vəziyyət donanma ilə gəmi təmiri müəssisələri arasında xüsusi iqtisadi əlaqələrin yaranmasına səbəb oldu. Gəmilərdən səmərəli istifadə təmirin təşkili, texnologiyası və iqtisadiyyatının təkmilləşdirilməsi ilə ayrılmaz şəkildə bağlıdır.

## 6. Gəmi təmiri sahəsində ixtisaslaşmanın artırılması istiqamətləri

Rəqabət qabiliyyətli iqtisadi münasibətlərin formalaşdığı mühitdə müəssisə fəaliyyətinin funksional bölgüsünün artması hesabına ixtisaslaşmaya üstünlük verilir. Köməkçi (xidmətedici) işlərin bəzilərinin təmərküzləşməsi və həmin işlərin reallaşdırılmasının ixtisaslaşdırılmış gəmi təmiri müəssisələrində birləşməsi müəssisə fəaliyyətinin funksional bölgüsünə görə xarakterik hal hesab olunur. Gəmi təmiri sahəsində ixtisaslaşmanın artırılması bəzi faktorların təsiri ilə olur.

Gəmi təmirinə yaxın gələcəkdə tələbatın yüksəlməsi və təmir sənayesinin şaxələnməsi gəmi təmiri sahəsində ixtisaslaşmanın artırılmasının əsas istiqamətlərindən biridir. Təmirin stabil və təkrar edilən nomenklaturası gəmi təmiri müəssisəsinin istehsal proqramının stabil olmasını müəyyənləşdirir. Təmir işlərinin bütün ünsürlərinin yüksək təkrar edilməsi dərəcəsi, təmirin ahəngdarlığının artması və istehsalın (əməyin) təşkilinin ən yaxşı üsullarının tətbiq olunması ilə nəticələnir.

Gəmi təmiri sahəsində ixtisaslaşmanın artırılmasının əsas istiqamətlərindən biri də elmi-texniki tərəqqinin (ETT-nin) yüksək artım sürəti və innovasiyanın nailiyyətlərinin istehsalata tətbiq olunmasıdır. Gəmi təmiri sahəsində ixtisaslaşma ETT-nin və innovasiyanın nailiyyətlərinin vacib şərti sayılır. Buna əsas səbəb kimi ETT ixtisaslaşdırılmış gəmi təmiri müəssisələrinin təşkil olunması sayəsində əmək bölgüsünün dərinləşməsi ilə nəticələnən önəmli bir amil olmasıdır.

İnnovasiyaların təmir sahəsində necə önəm daşıdığını gündəlik həyatımızda görürük. Buna görə də innovasiyalardan istifadənin genişləndirilməsi məqsədi üzrə müasir texnologiyalardan istifadə etməklə aparılan təmir işlərinin xüsusi çəkisi göstəricisi təyin edilə bilər. Düzdür, müasir texnologiyalardan istifadə edilməsinə müxtəlif münasibətlər ola bilər və hətta ilk dövrlərdə innovasiyaları qəbul edən müştərilərin xüsusi çəkisi aşağı ola bilər. Lakin sonrakı dövrlərdə innovasiya əsaslı təmir işlərinin keyfiyyət göstəricilərinin yuxarı olması müştəri sayının artırılmasına təsir edən amillərdən biri ola bilər [6, s.154-155].

Gəmi təmiri sahəsində ixtisaslaşmanın artırılmasının digər istiqamətlərindən biri də iqtisadi baxımdan məqsədəuyğun dərəcədə gəmi təmiri müəssisəsində məhsul buraxılışının təmərküzləşməsi və gəmi təmirinin optimal ölçüyədək artırılmasıdır. Bu, gəmi təmiri prosesində tətbiq olunan əsas vəsaitləri və əmək ehtiyatlarını ən yüksək səviyyədə artırmağa şərait yaradır.

Təmir xidmətinin çeşidinin uzunmüddətli konstruktiv stabilliyinin formalaşması, təmirin modern və perspektiv tiplərinin işlənib hazırlanması da gəmi təmiri sahəsində ixtisaslaşmanın artırılmasının əsas istiqamətlərindən biridir. Modern üslubda konstruktiv quruluşa malik təmir xidmətinin texnoloji dəyişkənliyi ilə sıx əlaqəsi, ETT və bazarın tələbləri nəticəsində təmir xidmətinin nomenklaturasının tez-tez dəyişdiyi bir mühitdə ixtisaslaşdırılmış əsas vəsaitlərdən səmərəli istifadə olunmasına şərait yaradır. Hazırki iqtisadi mühitdə ETT təmir xidmətlərinin nomenklaturasının çoxalması və tez-tez dəyişməsi ilə, həmçinin qısa

müddətdə ucuz təmir xidmətlərinin təmin olunmasına görə gəmi təmirinin ixtisaslaşması, mexanikləşdirilməsi və avtomatlaşdırılması ilə də xarakterizə edilir.

**Nəticə.** Beynəlxalq gəmiqayırma və gəmi təmiri sənayesində müəssisələrin rəqabət qabiliyyətliliyi artmışdır. Hazırda belə bir iqtisadi şəraitdə ölkəmizdə ixtisaslaşmanın formalarının strateji səmərəliliyini təmin etməyə və strateji əhəmiyyətli sənaye sahələrindən biri kimi inkişaf məqsədlərinə çatmaq üçün bir sıra məsələlər öz həllini tapmalıdır. Həmin məsələlər aşağıdakı istiqamətlərdən ibarətdir:

- Mülki gəmiqayırma və gəmi təmiri müəssisələrinin əsas istehsal fondlarının kəskin şəkildə köhnəlmiş (fiziki və mənəvi cəhətdən) hissələrinin yenilənərək modernləşdirilməsi;
- Gəmi təmiri müəssisəsinin texnoloji hazırlıq səviyyəsinin daha da yüksəldilməsi;
- Dizaynın beynəlxalq standartlara uyğunlaşdırılaraq təkmilləşdirilməsi;
- Müasir məhsul nümunələrinin yaradılması üçün planlaşdırılan işlərin artırılması;
- Əmək məhsuldarlığının artırılması;
- İxtisaslı mühəndis və istehsal kadrlarının ixtisaslarının artırılması;
- Mülki gəmiqayırma üçün komponentlərin və montajların xarici tədarükçülərdən asılılığının aradan qaldırılması və s.

Davamlı inkişafa və gəmiqayırma sənayesində strateji səmərəliliyin artırılmasına nail olmaq üçün dövlət dəstəyi göstərilməlidir. Bu baxımdan ilk növbədə gəmi təmiri sahəsinin ixtisaslaşdırılması üçün ölkəmizin mövcud qanunvericiliyi və normativ-hüquqi bazası daima qabaqcıl dünya təcrübəsinə əsasən təkmilləşdirilməlidir.

## Ədəbiyyat


1. Gasimov A.A., Hajiyev G.B. (2021), On management evaluation of oil-gas industry enteprises in modern economic condition. SOCAR Proceedings, No.3, 100-105.
2. Gogolukhina M., Mamedova L. (2022), Organisational and economic aspects of deep modernisation and foundation projects of shipbuilding yards. Transportation Research Procedia, Vol.63, No.3, 2072-2078.
3. Həsənov H.K., Yadigarov T.A., Bayramova M.M. (2015), Gəmiqayırma və Gəmi Təmiri Müəssisələrinin İqtisadiyyatı. Bakı: ADDA nəşriyyatı, 120.
4. https://report.az/xarici-siyaset/prezident-ilham-eliyev-azerbaycanin-gemiqayirma-imkanlari-xezerdeki-qonsularimiza-da-teqdim-olunub/
5. Humbatova S.I., Hajiyev G.B., Aliyeva L.Z. (2023), Impact of oil exports on imports of agricultural machinery and equipment. International Journal of Energy Economics and Policy, Vol.13, No.1, 335-351.
6. Məmmədova M.B. (2019), Həyat və Biznes Dərsləri. Bakı, 160.
7. Məmmədova M.B., Axundov M.Ə. (2017), Balanslaşdırılmış göstəricilər sistemində səmərəliliyin artırılması mexanizmləri. Maliyyə və Uçot, No.8, 29-35.
8. Məmmədova M.B., Mikayılov A.K. (2016), Maliyyə idarəetməsi sistemində büdcələşdirmə prosesinin rolu. Azərbaycan Neft Təsərrüfatı, No.12, 49-55.

9. Qasımlı V.Ə. (2014), İqtisadi Modernizasiya. Bakı, 312.
10. Yadigarov T.A. (2018), Azərbaycan İqtisadiyyatında Dəniz Nəqliyyatı: Problemlər və Perspektivlər. Bakı: Avropa, 350.
11. Астафурова И.С. (2018), Кластер судостроения и судоремонта Приморского края: Перспективы и возможности. Территория новых возможностей. Вестник Владивостокского Государственного Университета Экономики и Сервиса, Том.10, No.2, 28-36.
12. Барышников С.О., Красюк А.Б., Чистов В.Б. (2022), Оптимальная дефектация корпусов судов речного флота. Вестник Государственного Университета Морского и Речного Флота Имени Адмирала С.О. Макарова, Том.14, No.6, 915-930.
13. Гальянов А.П. (1988), Технология и Организация Судоремонта в Рыбной Промышленности. Москва: Агропромиздат, 303.
14. Гасымов А.А., Гаджиев Г.Б. (2022), Формирование инвестиционного климата в нефтегазовой отрасли Азербайджана и его влияние на развитие ненефтяного сектора. SOCAR Proceedings Special Issue, No.2, 33-42.
15. Герберг Т.Е., Гуревич И.М. (1974), Организация и Планирование Производства на Судоремонтных Предприятиях. Москва: Транспорт, 312.
16. Заглубоцкий П.М., Дураков В.К., Розанов В.В. (1976), Экономика и Организация Ремонта Судов Рыбопромыслового Флота. Москва: Пищевая промышленность, 360.
17. Замаховская А.Г., Дмитриева Н.Е., Коган Н.Д. (1978), Экономика и Организация Судоремонта. Москва: Транспорт, 320.
18. Каплан Р., Нортон Д. (2003), Сбалансированная система показателей. От стратегии к действию. Москва: Олимп-Бизнес, 304.
19. Керимов А.К. (1980), Развитие судоходства и судоремонта в Азербайджане (1850-1940 г.г.). Автореферат диссертации кандидата экономических наук. Тбилиси, 22.
20. Новиков А.В. (2023), О проблемах экономической эффективности проектного менеджмента и бережливого производства на промышленных предприятиях (на примере судоремонта). НИР. Российский Журнал Управления Проектами, Том.12, No.2, 12-19.
21. Новиков А.В. (2023), Особенности управления судостроительными предприятиями. Естественно-Гуманитарные Исследования, Том.3, No.47, 449-452.
22. Полшков Ю.Н. (2022), Прикладной инструментарий инновационного планирования процессов научно-технологической модернизации судостроительной промышленности Российской Федерации: Оптимизация производственных фондов и управление трудом. Вестник Донецкого национального университета, Серия Экономика и Право, No.2, 250-261.

23. Соколова Е.Б., Журавель Ю.Г. (2019), Развитие высокотехнологических судостроительных кластеров на Дальнем Востоке для производства арктических судов. Ойкумена. Регионоведческие Исследования, No.4, 21-29.
24. Шамрай Ф.А. (2022), Обеспечение конкурентоспособности судостроительных предприятий с применением цифровых технологий. Диссертация кандидата экономических наук, Великий Новгород, 236.